

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (21.317)

25 avqust 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Muxtar respublikamızdakı muzeylər ziyarət olunur

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada fəaliyyət göstərən muzeylərə kollektiv ziyarətlər davam etdirilir.***





Avqustun 22-də "Naxçıvanqaz" İstehsalat Birliyinin və Naxçıvan Muxtar Respublikası Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivləri Dövlət Bayrağı Muzeyini ziyarət ediblər. Burada onlara məlumat verilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə hər il noyabr ayının 17-si "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir.

Ziyarətçilərə ekspozisiyadakı qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilib.

Həmin gün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi, Dövlət Energetika Agentliyi və Dini Qurumlarla İş üzrə İdarəsinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, "Kapital Bank" ASC-nin Naxçıvan Muxtar Respublikası Baş İdarəsinin və "Naxçıvanbank"ASC-nin əməkdaşları Ədəbiyyat Muzeyində, Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Seçki Komissiyasının kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidmətinin və struktur qurumlarının kollektivləri Xalça Muzeyini, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurası və "Şərq qapısı" qəzeti redaksiyasının əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyini, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları isə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər.

**Xəbərlər şöbəsi**

*Risklərin idarə edilməsi sahəsində Cənubi Koreya və Azərbaycan gömrük xidmətlərinin ekspert qruplarının görüşü olub.*

## Risklərin idarə edilməsi sahəsində Cənubi Koreya gömrük xidməti ilə təcrübə mübadiləsi həyata keçirilir

Cənubi Koreyaya səfər çərçivəsində bu ölkənin İnkeon, Dayjon və Dorasan şəhərlərində yerləşən gömrük orqanlarında müxtəlif görüş və seminarlar təşkil olunub. Risklərin idarə edilməsi sahəsində Azərbaycan gömrük ekspert qrupuna Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidmətinin general-mayoru Səhət Həbibbəyli rəhbərlik edib.

Səfər çərçivəsində Azərbaycan gömrük xidməti nümayəndə heyətinə Cənubi Koreya Respublikası gömrük xidmətinin tarixi, maddi-texniki bazası, gömrük orqanlarının iş prinsipi və fəaliyyəti, işdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi, gömrük işi və nəzarətinin təşkili sahəsində tətbiq olunan yeniliklər barədə ətraflı məlumat verilib.

Azərbaycan gömrük xidmətinin keçdiyi tarixi inkişaf yolu, müstəqillik dövründə gömrük işi sahəsində əldə olunan yeniliklər, gömrük infrastrukturunun modernləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, işdə operativliyin artırılması, elektronlaşdırma, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində görülən işlər Cənubi Koreya Respublikası gömrük nümayəndələrinin diqqətinə çatdırılıb.

Cənubi Koreya Respublikasının gömrük xidməti ilə tanışlıq zamanı məlum olub ki, bu ölkədə gömrük xidməti müstəqil fəaliyyət göstərir və işdə İKT-nin, texniki nəzarət vasitələrinin, o cümlədən yoxlama baxış sistemlərinin imkanlarından geniş istifadə olunur. Elektron idarəetmə modelinin tətbiqi, dövlət qurumları ilə qarşılıqlı sıx əməkdaşlıq, digər dövlətlərin gömrük xidmətləri ilə birgə məlumat mübadiləsi bu ölkənin gömrük xidmətini xarakterizə edən əsas cəhətlərdir.

Gömrük nəzarətinin operativ şəkildə həyata keçirilməsi, hüquqpozma hallarının aşkarlanması və aradan qaldırılması risk amilinin düzgün müəyyənləşdirilməsindən asılıdır. Cənubi Koreyada xarici ticarət əlaqələri, əsasən, bərə və hava yolu ilə həyata keçirilir. Ümumiyyətlə, statistika göstərir ki, ölkəyə idxal olunan malların illik 5 faizi riskə düşür.

Birhəftəlik zəngin səfər proqramı çərçivəsində risklərin idarə edilməsi üzrə ekspert qrupları bu sahədə hər iki ölkənin gömrük xidmətlərində tətbiq olunan metod və prinsipləri qarşılıqlı şəkildə müzakirə edərək risk amilinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar. Keçirilən görüşlər və təşkil olunan seminarlar risk sahəsinin və obyektlərinin müəyyən olunması kriteriyalarının təkmilləşdirilməsi, bu işdə insan amilinin minimuma endirilməsi, riskin qiymətləndirilməsi meyarlarının təhlilinin daha da gücləndirilməsi və sürətləndirilməsi, təcrübə mübadiləsi və yaxın innovativ metodların öyrənilməsi baxımından əhəmiyyətli olub.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

## Səyyar xidmətlər əhalinin rahatlığını təmin edib

***Son illərdə muxtar respublikamızda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Sevindirici haldır ki, dövlət orqanlarının əksəriyyətində əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər vaxt itkisini, eləcə də digər çətinlikləri aradan qaldırıb.***

Cari ilin fevral ayının 9-da 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən aidiyyəti qurumlara əhaliyə müvafiq xidmətlərin səyyar qaydada həyata keçirilməsinin təmin edilməsi haqda verilən tapşırıq doğma diyarımızda dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub. Bu addım muxtar respublika sakinləri tərəfindən əhaliyə göstərilən xidmətlər sahəsində atılan uğurlu addımın, dövlətimizin öz vətəndaşına, bütövlükdə, insan amilinə verdiyi dəyərin təzahürü kimi qiymətləndirilir. Tapşırıqdan sonrakı müddətdə müvafiq tədbirlər həyata keçirilib, maddi-texniki baza yaradılıb. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə "Hyundai" markalı avtomobil verilib. Avtomobil səyyar xidmətin göstərilməsi üçün avadanlıqlarla təchiz edilib.

Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili muxtar respublikanın bir sıra kənd yaşayış məntəqələrində olub, əhaliyə yerlərdə səyyar xidmət göstərib. Ötən həftə səyyar xidmət avtomobili Ordubad rayonunun bir sıra kəndlərində olub. Nazirliyin əməkdaşı, polis baş leytenantı Seymur Tağıyevlə Gənzə kəndində görüşdük. O bildirdi ki, burada vətəndaşlara 5 hüquqi xidmət – ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərilir. Çalışırıq ki, yerlərdə vətəndaşların müraciətlərini operativ şəkildə cavablandıraq, onların vaxta qənaət etmələrinə şərait yaradaq.

Gənzə kənd sakini Könül Rzayeva səyyar xidmətə şəxsiyyət vəsiqəsi almaq üçün müraciət etmişdi. Bildirdi ki, xidmət vasitəsilə vəsiqələrin çıxarılması üçün lazım olan sənədləri qısa vaxt ərzində elə yaxınlıqdakı kənd mərkəzində fəaliyyət göstərən inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən əldə edib. Şəxsiyyət vəsiqəsi üçün lazım olan fotoşəkillər də elə kənd mərkəzində təşkil edilən studiyada çəkilib. Bu da onun işini xeyli asanlaşdırıb. Daxili İşlər Nazirliyinin səyyar xidmətinin qeydiyyat və şəxsiyyət vəsiqələri qrupunun əməkdaşları sənədlərin toplanmasına və işlənməsinə böyük həssaslıqla yanaşıblar və bildiriblər ki, qısa müddətdə o, şəxsiyyət vəsiqəsini rayon mərkəzinə getmədən elə öz kəndində ala biləcək. Bütün bu görülən işlər dövlətimizin öz vətəndaşlarının qayğısına qalmasından xəbər verir. Buna görə dövlətimizə minnətdarıq.

Kəndin daha bir sakini Vəfa Rəhimli də səyyar xidmətdən razılıq etdi və dedi ki, əvvəllər şəxsiyyət vəsiqəsi almaq və ya dəyişdirmək üçün rayon mərkəzinə getmək lazım gəlirdi. Daha mənim və mənim kimi çox sayda kənd sakinlərinin Naxçıvan şəhərinə və rayon mərkəzinə getmələrinə, dövlət orqanının qapısını döymələrinə ehtiyac qalmayıb. Əksinə, həmin orqan öz vətəndaşının, yəni biz kənd sakinlərinin qapısını döyür, bizim müraciətlərimiz qısa zamanda həllini tapır. Dövlətimiz tərəfindən atılan bu addıma görə minnətdaram və haqlı olaraq qürur hissi keçirirəm.

Xidmətə müraciət edən digər kənd sakinləri dedilər ki, şəxsiyyət vəsiqəsini vaxt itirmədən və rahat şəkildə ala bilirlər. Xidmət yüksək səviyyədə təşkil olunub. Üstün cəhətlərdən biri isə odur ki, insan nəyisə bilməyəndə çox gözəl izah edirlər, onu məlumatlandırırlar.

Həmin gün Gənzədə 6 şəxsiyyət vəsiqəsi, 4 sürücülük vəsiqəsi dəyişdirilmək üçün səyyar xidmətə müraciət olunduğunu deyən Seymur Tağıyev onu da bildirdi ki, qarşıdakı günlərdə Nüsnüs, Aşağı Əylis, Dırnıs və Baş Dizə kəndlərində olacaqlar. Dünən qəzetimiz üçün bu yazını hazırlayarkən nazirliyin nümayəndəsi ilə əlaqə saxladıq. Öyrəndik ki, Nüsnüs kəndində 23 şəxsiyyət, 5 sürücülük, Aşağı Əylis kəndində 21 şəxsiyyət, 4 sürücülük, Dırnıs kəndində 22 şəxsiyyət, 7 sürücülük, Baş Dizə kəndində 41 şəxsiyyət, 1 sürücülük vəsiqələri dəyişdirilmək üçün xidmətə təqdim olunub. Avqust ayının 24-də səyyar xidmət avtomobili Culfa rayonunun Yaycı kəndində olub.

Sonda onu qeyd etmək istərdik ki, səyyar xidmətlərin təşkilinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, müasir texnologiyaların tətbiq olunması, dövlət məmuru vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – "dövlət məmurunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır.

**✍ Muxtar MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

2015-ci ilin iyul-avqust ayları ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Belə ki, "Avtomobil yollarının ehtiyat zonalarında bina və qurğuların, kommunikasiyaların yerləşdirilməsi qaydalarında edilmiş dəyişikliklər haqqında", "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında", "Turistlərə elektron viza almaq hüququnu əldə etmək üçün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən turizm şirkətlərinin akkreditasiyadan keçməsi Qaydası"nın təsdiq edilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası" haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları təsdiq edilmişdir.

Avqust ayında "Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"na əsasən, tətbiq edilən cərimələrdən toplanıb nazirliyin xüsusi xəzinə hesabına köçürülən vəsaitin 25 faizi nazirlik işçilərinin sosial müdafiəsinin gücləndirilməsində və maddi-texniki bazasının yaxşılaşdırılmasına istifadə olunacaqdır.

"Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən, cari ilin iyul-avqust aylarında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktları Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən aparılan Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.



## Qafqaz ekoregionunda transsərhəd çayı boyunca yaradılmış ilk xüsusi mühafizə olunan təbiət obyekti

***Muxtar respublikamızın coğrafi mövqeyi, təbiəti, fauna və flora müxtəlifliyi ölkəmizdə, ümumilikdə isə Qafqaz ekoregionunda xüsusi yerə malikdir. Bu ekoloji zənginliyin qorunması və inkişafı ulu öndər Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlişindən sonra mümkün olmuşdur. Təkcə 1969-1982-ci illərdə ölkəmizdə ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan səmərəli istifadə və digər ekoloji problemlərin həlli sahəsində 8 qanun, 32 qərar qəbul edilmişdir.***

Ötən əsrin sonlarında respublikadakı mövcud ictimai-siyasi vəziyyət ölkə ekologiyasına da öz təsirini göstərmiş, nəticədə, ölkəmizin digər regionları ilə yanaşı, muxtar respublikada da təbiətə böyük ziyan vurulmuş, ətraf mühitin mühafizəsi diqqətdən kənarda qalmışdı. Ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ekoloji fəlakətlərin də qarşısını almışdır. Naxçıvan ekoregionunda da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, ekologiyanın mühafizəsi ilə bağlı həyata keçirilən tədbirlər muxtar respublika ərazisində biomüxtəlifliyin təmin olunmasına şərait yaratmışdır.

Xatırladaq ki, muxtar respublikada ilk xüsusi mühafizə olunan təbiət ərazisi görkəmli akademik Həsən Əliyevin təşəbbüsü və ulu öndər Heydər Əliyevin qərarı ilə 1969-cu ildə Ordubad-Culfa rayonları ərazisində Zaqafqaziya muflonu və bezoar keçilərinin qorunması məqsədilə 40 min hektar sahədə yaradılmış və Ordubad Dövlət Təbiət Yasaqlığı kimi fəaliyyətə başlamışdır. 2003-cü ildə isə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Ordubad inzibati rayonunun ərazisində 12131,0 hektar ərazini əhatə edən Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz inzibati rayonunun ərazisində 3139 hektar sahəni əhatə edən Şahbuz Dövlət Təbiət Qoruğu yaradılmışdır. Muxtar respublikamızda bu tədbirlər ardıcıllıqla davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə Araz çayının və dəryaçasının muxtar respublika hüdudlarına aid hissəsində ümumi ərazisi 9118 hektar olan hidroloji, bioloji və paleontoloji əhəmiyyətli "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu il 22 iyun tarixli Sərəncamla isə ümumi ərazisi 68911,18 hektar olan "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Muxtar respublika ərazisində ekoloji mühitin sağlamlaşdırılması ilə bərabər, mövcud ekoturizm potensialının inkişaf etdirilməsinin dəstəklənməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə ümumi ərazisi 42787,41 hektar olan Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı təsis olunmuşdur. Hazırda muxtar respublika ərazisində 1 milli park, 1 qoruq, 3 yasaqlıq fəaliyyət göstərir ki, bu da ümumi ərazilərimizin 27 faizindən çoxunu təşkil etməklə beynəlxalq normaları üstələyir.

Xüsusi mühafizə olunan təbiət əraziləri içərisində "Arazboyu" Dövlət Təbiət Yasaqlığı bir çox tərəfləri ilə diqqəti çəkir. Birinci ona görə ki, Araz çayı ərazisindən axdığı ölkələrin hər biri üçün iqtisadi və ekoloji əhəmiyyət kəsb edir. İkinci bir tərəfdən çayboyu ərazilər uzaq keçmişdən bu günümüzə qədər zəngin fauna və flora növlərinin inkişaf etdiyi bir mənbədir. Üçüncüsü isə Araz çayı az sulu muxtar respublika əraziləri üçün cənub sərhədləri boyu



uzanan və həcminin artıb-azalmasından asılı olmayaraq, daimi su mənbəyi rolunu oynayır. Qeyd edək ki, Arazboyu sahələr başlıca olaraq Sədərək, Şərur, Böyükdüz, Naxçıvan, Culfa və Ordubad maili düzənliklərindən ibarətdir. Arazboyu qurşaq 1700 kvadratkilometr olmaqla muxtar respublika ərazisinin 32 faizini təşkil edir. "Arazboyu" Dövlət Təbiət Yasaqlığı məhz bu baxımdan böyük əhəmiyyət kəsb edir. Yeri gəlmişkən qeyd edək ki, bu yasaqlıq Qafqaz ekoregionunda transsərhəd çayı boyunca yaradılmış ilk xüsusi mühafizə olunan təbiət obyektidir. Biz də bu günlərdə həmin yasaqlığın yerli şəraiti və ekoloji vəziyyəti ilə yaxından tanış olduq. "Arazboyu" Dövlət Təbiət Yasaqlığının direktoru Kərim Novruzov bizimlə söhbətində qeyd etdi ki, 10 il bundan əvvəl Araz çayı boyunca yasaqlığın yaradılması muxtar respublikanın ekoloji tarazlığının qorunması baxımından atılmış ən mühüm addımlardan biri idi. Bir zamanlar bu ərazilər nəzarətsiz vəziyyətdə idi. Yaxın yaşayış məntəqələrindən, eləcə də digər yerlərdən gələnlərin burada qanunsuz ov etməsi, ərazini müxtəlif vasitələrlə çirkləndirməsi ekologiyaya ciddi ziyan vururdu. Ancaq yasaqlıq yaradıldıqdan sonra ərazinin ciddi nəzarətə götürülməsi vəziyyətin yaxşılaşdırılmasında böyük rol oynayıb.



Kərim Novruzov onu da vurğulayır ki, Azərbaycan Respublikası ərazisində yayılmış 8 dəstə, 20 fəsilə və 55 cinsə mənsub olan 102 məməli heyvan növünün 62-si məhz muxtar respublika ərazisində məskunlaşıb. Bunun da böyük əksəriyyəti Arazboyu ərazilərdə yayılıb. Bunlardan adi tülkü, yekəqulaq və adi kirpi, ərəbdovşanı, çölpişiyi, çöldonuzu, canavar, çaqqal və sairi göstərmək olar. Bununla yanaşı, çayın qamışlı sahillərində və su anbarında, əsasən, su quşları məskunlaşıb. Bunlardan göyərçin, sarıköynək, bağırqara, ağqarın çil, sığırçın, çəhrayı qutan, ördəklərdən yaşılbaş ördək, boz ördək, lizquyruq, anqut, qazlardan boz qaz, ağ alın qaz, o cümlədən digər quşlar – ərsindimdik, çığırqan cüllüt, adi ilanyeyən, Xəzər uları, bağırqara və sairi misal göstərmək olar. Ötən əsrin 90-cı illərinin əvvəllərində burada məskunlaşan heyvan və quş növlərinin sayı xeyli azalmışdı. Ancaq qeyd etdiyimiz kimi, çayboyu yasaqlığın yaradılması həm ərazinin ekoloji təmizliyinə, həm də buradakı heyvan növlərinin artımına imkan verib. Hazırda yasaqlığa güclü nəzarət olunur. Burada mühafizə xidmətini 1 sahə müfəttişi və 6 mühafizə yegeri (ərazidə xidmət aparan nəzarətçi) həyata keçirir. Ərazidə xidmət aparan nəzarətçi Məhərrəm Mirzəyevlə söhbətləşirik. Bildirir ki, hər gün xüsusi geyimdə ona təhkim olunmuş ərazidə xidmət aparır: "İndi yasaqlıq ərazisində qayda pozuntularına, deməli olar ki, rast gəlinmir. Gün ərzində sahilboyu əraziləri gəzirik, ətrafa nəzarət edirik. Çalışırıq ki, bu təbii gözəllikdən sui-istifadə olunmasın".

*Yuxarıda da qeyd etdiyimiz kimi, muxtar respublika ərazilərinin 27 faizi xüsusi mühafizə altında olan ərazilərdir ki, bu da ekoloji tarazlığın qorunmasına ciddi yanaşan ölkələrdəki vəziyyəti qat-qat üstələyir. Bir zamanlar baxımsız qalmış Arazboyu ərazilər indi yerli fauna və flora növlərinin zənginləşdiyi gözəl bir təbiət ərazisinə çevrilib. Ətrafı seyr edirik. Həqiqətən, yasaqlıq göz oxşayır. Sakit axan Araz, müxtəlif növ quşların və əraziyə xas küləyin səsi ərazidə təbii bir atmosfer yaradır. Sanki təbiət də bütün bu ahəngdarlığı ilə insanlara "sağ olun" deyir...*

✍ **Səbuhi HƏSƏNOV**

## Ekologiyanın mühafizəsi və sistemli tədqiqatlar bəhrələrini verməkdədir

### *Muxtar respublikada cüyür və çay samuru aşkar edilib*

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşları onlara göstərilən dövlət qayğısından səmərəli istifadə edərək muxtar respublikanın fauna və florasının öyrənilməsi sahəsində tədqiqatlarını davam etdirirlər. Bununla əlaqədar olaraq institutun direktoru, akademik Tariyel Talıbovla həmsöhbət olduq. O bildirdi ki, Qafqaz ekoregionunda müstəsna mövqeyi və özünəməxsus torpaq-iqlim xüsusiyyətləri olan Naxçıvan Muxtar Respublikası həm də biomüxtəlifliyi ilə seçilir. Azərbaycan faunasında aparılan son illərin tədqiqatları onurğalı heyvanların 638 növ təşkil etdiyini göstərir. Naxçıvan Muxtar Respublikasında aparılan tədqiqat işlərinin nəticələri ərazidə 386 növ (60,7 faiz) onurğalı heyvanın yaşadığını müəyyənləşdirməyə imkan vermişdir. Bu növlərdən 71-i "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı"na salınmışdır. Bu müqayisə floraya da aid edilə bilər. Belə ki, ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər Azərbaycan üzrə 5 minə yaxındır. Naxçıvan Muxtar Respublikasında bu, 2838-dən (56,8 faiz) çoxdur. Son dövrlər muxtar respublikada dövlət tərəfindən təbiətin mühafizəsi istiqamətində aparılan fundamental tədbirlər nəticəsində ərazidəki fauna və floraya daxil olan nadir növlərin də vəziyyəti yaxşılaşmış, say dinamikası və tərkibi nəzərəçarpacaq dərəcədə artmışdır.

Akademik onu da vurğuladı ki, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu yarandığı gündən başlayaraq Naxçıvan Muxtar Respublikasının bioresurslarının tədqiqi, onların təbii ehtiyatı və istifadə imkanları, eyni zamanda nadir növlərin mühafizə yollarına dair elmi-tədqiqat işləri aparır. Yeni təkmil cihaz və





avadanlıqlar tədqiqat işlərinin dəqiq olması ilə yanaşı, həm də yeni növlərin aşkar edilməsinə imkan vermişdir. Ərazimizdə flora və faunamıza daxil olan beynəlxalq statuslu unikal növlərin aşkar edilməsi Yeni Zelandiyadan başlayaraq İrlandiyaya kimi bir çox dünya bioloqlarının ərazimizə ekspedisiyaya gəlməsinə səbəb olmuşdur. Heyvan növlərindən muflon, bezoar keçisi, bəbir, oxlu kirpi, çöl və qamış pişikləri, eyni zamanda bitki növlərindən kox şamı, süsənlər, tülpanlar, aristoloxiya və sair kimi bitki növləri daim diqqət mərkəzində olmuşdur. Qeyd edək ki, göstərilən növlərin, demək olar ki, əksəriyyəti tərəfimizdən yeni aşkar edilərək ilk dəfə olaraq fotoları çəkilmişdir.

Tariyel Talıbov dedi ki, Batabat meşəsi ərazisində Ümumdünya Təbiəti Mühafizə Fondu tərəfindən verilən fototələlər vasitəsilə nadir növ olan cüyürün fotoşəkli çəkilmişdir. Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq çəkilən bu şəkil burada yeni bir növün mövcudluğunu isbat etməklə yanaşı, həm də ərazimizin zəngin faunaya və biomüxtəlifliyə malik olduğunu bir daha sübut edir.

Avropada cüyürlər nisbətən iri, Qafqazda yayılan isə onun kiçik capreola formasıdır. Azərbaycanda keçən əsrin 50-60-cı illərində bütün təbii vilayətlərdə az da olsa, yayılmışdı, lakin hal-hazırda Kür-Araz ərazisində nəsli kəsilmiş, qalan ərazilərdə isə çox lokal sahələrdə nadir və nəsli kəsilmək təhlükəsində olan növə çevrilmişdir. Elmi ədəbiyyatlarda Böyük Qafqazın cənub-şərq və çox az miqdarda şimal-şərq yamaclarında qalması haqqında məlumat verilir. Vaxtılə geniş yayılma arealına malik olan bu növ artıq Ümumdünya Təbiəti Mühafizə Fondu tərəfindən məhv olmaq təhlükəsi altında olan növ statusu ilə qorunur.

Cüyürlər, əsasən, kollar və ağaclar olan alçaq dağlıq və dağətəyi biotoplarda yaşamağa üstünlük verirlər. Başlıca yaşayış yerləri dəniz səviyyəsindən 200-2500 metr hündürlükdə olan qarışıq meşə landşaftlarını əhatə edir. Sürü halında yaşayırlar. Adi halda sürülərin tərkibində 4-5, qış fəslində isə 15-20 başa qədər artır. İlin fəsillərindən asılı olaraq üfüqi və şaquli formada köç edirlər. Belə yerdəyişmələr fəsillərlə əlaqədar olub, yaşayış biotopları daxilində baş verir. Sutkalıq və fəsillərlə əlaqədar olaraq fəal həyat tərzinə malikdirlər. Bu fəallıq ilin isti fəsillərində daha da artır. Azərbaycanda cüyürlərin qida rasionuna 44 növ bitki daxildir. Bunlardan paxlakimilər, taxılkimilər, kol və ağac bitkiləri üstünlük təşkil edir. Orta ömür müddəti 10-12 ilə qədərdir. Azərbaycanın müxtəlif bölgələrində cüyürlərin sayı XX əsrin birinci yarısında olan məlumatlarla müqayisədə 60-65 faiz azalaraq 1000-1200 baş təşkil edirdi, lakin mənfi təsirlərə həssas olduğundan son 10 ildə təbii şəraitdə 30-50 faizə qədər azalıb.

Akademik bildirdi ki, məhdudlaşdırıcı amillərə quraqlıq, meşə yanğınları, sellər, brakonyerlik, cüyürlərin yay otlaqlarında ev heyvanlarının otarılması, meşələrin qırılması, biotoplarında otların biçilməsi və sair kimi amillər daxildir.

Müsahibim onu da bildirdi ki, Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yenə nadir olan yeni bir növ – çay samuru aşkar edilmişdir. Bu növ mənfi təsirlərə həssas, sayı azalan növdür.

Avropa, Asiya (Ərəbistan yarımadası və Uzaq Şimaldan başqa), Amerika və Şimali Afrikada geniş yayılmışdır. Yayılmanın yuxarı həddi dəniz səviyyəsindən 2 min metr hündürlükdədir. Azərbaycanda ən sıx yayıldığı ərazilər Lənkəran və Qanıx (Alazan) çayı vadisidir. Böyük və Kiçik Qafqazın ətəklərində, Kür və Araz çayları boyunca da rast gəlinir.

Çay samuru su ətrafında yaşayan heyvandır. Əsas yaşayış yerləri dağ çaylarının orta axarı, insanların az rast gəldiyi və balıq resursları zəngin olan yerlərdir. Təmiz, şəffaf və soyuq olan nohurlara (girdabı, dəhnəsi olan iti axınlı çaylar, sıx otluqla örtülmüş hissələr, çətin gedilə bilən sahillər, kifayət qədər qida bazası və gizli yerləri olan göllər) üstünlük verir. Alatoran və gecə vaxtları fəal olurlar. Qida mənbələrinə müxtəlif növ balıqlar, az sayda qurbağalar, su-bataqlıq quşlarının və çay ördəklərinin balaları, su siçovulu, həşərat və böcəklərin sürfələri, şirinsu xərçəngləri və molyuskalar daxildir. 1980-ci ildə təxmin olunan sayı 1500 təşkil edirdi. Hal-hazırda aşkar olunmuş populyasiya sayı 1000-ə yaxındır.

Sahilyanı təbii biotopların zəifləməsi, çaylarda hidroloji rejimin pisləşməsi, kənd təsərrüfatında suya tələbatın artması, çayların su rejiminin dəyişməsi, su anbarlarının çirklənməsi nəticəsində balıqların sayının azalması, brakonyerlik, çaylar və göllərboyu ağaclar və kol bitkilərinin yox edilməsi, çaylaqlarda mal-qaranın otarılması əsas məhdudlaşdırıcı amillərdir.

Tariyel Talıbov diqqətə çatdırdı ki, son 20 il ərzində Naxçıvan Muxtar Respublikasında təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi nəticəsində xüsusi mühafizə olunan təbiət ərazi vahidləri (milli park, dövlət təbiət qoruğu və yasaqlıqlar) yaradılmışdır. Hər bir mühafizə olunan ərazidə nadir və nəsli kəsilməkdə olan heyvanlar öyrənilir, onların bərpası üçün xüsusi tədbirlər planı hazırlanır. Dövlət tərəfindən həyata keçirilən ciddi mühafizə tədbirlərinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə və beynəlxalq ekspertlərin də iştirakı ilə apardığımız monitorinqlərə əsasən, ərazimizdə nadir növlərin say dinamikasının artmaqda davam etdiyi aşkarlanmışdır.

✍ **Muxtar MƏMMƏDOV**

## Səhiyyə sahəsində görülən işlər əhalinin sağlamlığının qorunmasına xidmət edir

### *Son 20 ildə Şərur rayonunda da bu sahədə mühüm tədbirlər həyata keçirilib*

*Bəşər övladı var olandan bəri daim sağlam yaşamağın yollarını axtarıb, bu sahədə müxtəlif biliklərin əldə edilməsinə nail olub. Zaman keçdikcə bu biliklər tibbin inkişafına açar olub və indiki səhiyyənin formalaşmasına zəmin yaradıb. Həkimin gördüyü işin ən çətin və şərəfli bir iş olduğunu vurğulayan ümummilli lider Heydər Əliyev deyirdi: "Həkimlik sənəti dövri qədimdən şərəfli və hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, həkimlik kimi hər bir insana lazım olsun. Yer kürəsində insanların hərəsi öz fəaliyyətini bir sahədə göstərir. Hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır".*



Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə səhiyyənin inkişafını daim diqqətdə saxlayıb, bu sahədə misilsiz xidmətlər göstərib. Məhz həmin dövrlərdə Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yeni səhiyyə müəssisələri tikilib, kurort və müalicəxanalar yaradılıb. Ancaq ötən əsrin sonlarında ölkəmizin ictimai-siyasi həyatında baş verən neqativ proseslər səhiyyəmizə də təsirsiz ötüşməyib. Xüsusilə Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətinə salınması digər sahələr kimi, səhiyyənin də inkişafına mənfi təsir göstərib. Ancaq bütün bu çətinliklərə baxmayaraq, səhiyyə işçiləri düşmənlə bir addımlıqda yerləşən Naxçıvanda öz vəzifələrinin öhdəsindən uğurla gəliblər. Bu gün haqqında söhbət açacağımız Şərur səhiyyəsi də həmin çətin dövrlərdən alnıaçıq çıxaraq özünün hərtərəfli inkişaf dövrünü yaşayır.

Ən yaxın tarixdən bizə məlumdur ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvandakı gərgin ictimai-siyasi vəziyyət muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərur rayonunda da özünü göstərmiş, nəticədə, bir çox sahələr iflic vəziyyətinə düşmüşdü. Həmin dövrdə mövcud şərtlər daxilində fəaliyyətini davam etdirən səhiyyə müəssisələrindən biri də Şərur Rayon Mərkəzi Xəstəxanası olub. Bu xəstəxana 1992-ci ildən başlayaraq Sədərək və Şərur rayonlarının sərhəd məntəqələrinə ermənilərin hücumu zamanı yaralananlara tibbi xidmət göstərilməsində mühüm rol oynayıb. Həmin dövrdə hərbi hospital tam fəaliyyətsiz olduğundan rayondakı mərkəzi xəstəxanada cərrahi profilli şöbələr boşaldılıb, müəssisə tibbi sanitar batalyon funksiyasını yerinə yetirmək üçün hazırlanıb. Burada yaralılara ixtisaslı yardım göstərilməsi işi təşkil edilib. Şərurlu həkimlər bu tibb ocağında maddi-texniki bazanın olmadığı, dərman və müxtəlif tibbi ləvazimatların çatışmadığı həmin dövrlərdə öz vəzifələrinin öhdəsindən gəlməyə səy göstəriblər. Yalnız ağır diaqnoz qoyulmuş yaralıların və ya digər xəstələrin müalicəsini burada aparmaq mümkün olmayıb. O vaxt həmin xəstələr məcburiyyət üzündən qonşu ölkələrin hərtərəfli şəraitə malik tibb müəssisələrinə göndərilirdi. Təbii ki, bu da rayon sakinlərinin müalicə imkanlarını xeyli çətinləşdirirdi. Xatırlatmaq lazımdır ki, o dövrdə Şərur rayonunun bəzi kəndlərində müxtəlif tibb məntəqələri mövcud olsa da, bu səhiyyə ocaqlarındakı şərait yarıtmaz vəziyyətdə idi. Bəzən rayonun ən ucqar kəndlərində ilk tibbi yardıma ehtiyacı olanlara da tibbi müdaxilə etmək mümkün deyildi. Nəticədə, uzaq məsafələrdən, xüsusilə də nahamar yollarla xəstəni rayon mərkəzinə və yaxud Naxçıvan şəhərinə çatdırmaq həm çox zaman alırdı, həm də müəyyən fəsadlarla nəticələnirdi. Qeyd etmək yerinə düşər ki, belə bir şəraitdə rayonda sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamaq da çətin idi. Necə deyərlər, sağlamlığı qorumağın ilk yolu sağlam ətraf mühitdən başlayır. 20 il bundan əvvəl bu sahədəki vəziyyəti gözlərimiz önünə gətirsək, mənzərə hamımız üçün aydın olar. Məsələn, Şərur Rayon Gigiyena və Epidemiologiya Mərkəzindən aldığımız məlumata görə, yoluxucu xəstəliklərin profilaktikası sahəsinə nəzarət və bu sahədə mühüm addımların atılması 1995-ci ildən sonra daha intensiv xarakter alıb. Məlumatlarda qeyd olunur ki, 1994-cü ilin sonu, 1995-ci ilin əvvəllərində rayon əhalisinin aşağı yaş qrupları arasında difteriya xəstəliyinin baş verməsi hadisələrinə rast gəlinirdi. Ancaq 1995-ci ilin sonlarından etibarən rayonda əhali arasında immunlaşdırma aylığına başlanılması və hər bir rayon sakininin peyvənd tədbirlərinə cəlb edilməsi bu xəstəliyin tezliklə qarşısının alınmasına imkan yaratdı. Digər bir misal: 1996-cı ildə mərkəzin laboratoriyasında iki nəfərdə digər yerlərdən gətirilmə səbəbi ilə malyariya xəstəliyi aşkar olunmuşdu. 1997-1998-ci illərdə bu xəstəliyin daşıyıcılarına rayonun 28 yaşayış məntəqəsində rast gəlinmişdi. Bunun da əsas səbəbi əhalinin qonşu ölkələrə gediş-gəlişi, eyni zamanda kütləvi dərman preparatlarının çatışmazlığı olmuşdur. Ancaq qısa müddətdə bu istiqamətdə həyata keçirilən tədbirlər vəziyyətin tezliklə müsbətə doğru dəyişməsində mühüm rol oynamışdır. İldən-ilə səhiyyə sahəsinə göstərilən dövlət qayğısının nəticəsində 2003-cü ildən rayonun yaşayış məntəqələrində yuxarıda adıçəkilən yoluxucu xəstəliklərin heç birinə rast gəlinmir. Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, epidemioloji vəziyyətin sabit saxlanılması səhiyyə sahəsinə yalnız maddi vəsaitlərin ayrılması ilə ölçülmür. Həmin dövrlərdə muxtar respublikanın digər rayonlarında olduğu kimi, Şərur rayonunda da ticarət obyektlərinin, ictimai-iaşə müəssisələrinin, ərzaq mallarının satışı ilə məşğul olan obyektlərin hansı vəziyyətdə fəaliyyət göstərməsini orta və yaşlı nəsil yaxşı xatırlayır. Məhz muxtar respublikamızın hər bir bölgəsində olduğu kimi, Şərur rayonunda da kompleks quruculuq-abadlıq işlərinin həyata keçirilməsi epidemioloji vəziyyətin dəyişməsinə səbəb oldu.

Ötən 20 il ərzində muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri sırasında səhiyyə müəssisələrinin diqqət mərkəzində saxlanılması Şərur rayonunda da əsas hədəflərdən biri olub. Qeyd edək ki, hazırda rayonda 1 rayon mərkəzi xəstəxanası, 1 kənd sahə xəstəxanası, 28 həkim ambulatoriyası və 32 feldşer-mama məntəqəsi fəaliyyət göstərir. Həkim ambulatoriyalarından 22-si, feldşer-mama məntəqələrindən isə 15-i müasirtipli binalarda yerləşməklə bütün tibbi avadanlıqlarla təchiz edilib. Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı yenidənqurma işlərindən sonra 2007-ci ildə rayon sakinlərinin istifadəsinə verilməsi isə rayonda səhiyyənin yeni mərhələyə qədəm qoymasına səbəb olub. Bu möhtəşəm səhiyyə müəssisəsinin açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: ***"Çox şadam ki, Şərurda belə gözəl səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Mən xəstəxana ilə indi tanış oldum, gördüm ki, sözün əsl mənasında, bütün dünyada mövcud olan yüksək standartlara cavab verən bir tibb ocağıdır. Burada insanlar yaxşı tibbi xidmət alacaq, müalicə olunacaq, müayinədən keçəcəklər. Burada ən gözəl, ən müasir tibbi avadanlıq quraşdırılıbdır. Bir sözlə, bu xəstəxana ən yüksək dünya standartlarına cavab verir. Bizim də məqsədimiz məhz bundan ibarətdir ki, Azərbaycanda yaradılan bütün müəssisələr, bütün infrastruktur obyektləri, sosial infrastruktur obyektləri ən yüksək səviyyədə olsun və biz buna nail oluruq".***

Bu səhiyyə müəssisəsində olduğumuz zaman bir daha gördük ki, burada müasir tibbi xidmət üçün hərtərəfli şərait yaradılıb. Xəstəxananın hemodializ bölməsində 3 ədəd hemodializ aparatı quraşdırılıb ki, bu da aidiyyəti xəstələrin başqa yerlərə getməsinin qarşısını alır. Təcili yardım şöbəsində 4 briqada və 4 avtomobil xidmət göstərir. Briqadalar kifayət qədər təcrübəli tibb işçilərindən təşkil olunub. Şöbə təcili yardım üçün lazım olan bütün dərmanlarla təmin edilib. Bundan əlavə, ən ucqar kənd yaşayış məntəqələrində də ilkin tibbi yardım üçün hərtərəfli şərait yaradılıb və bu tibb ocaqlarının tibbi ləvazimatlarla təminatı diqqətdə saxlanılır. Artıq hansısa ucqar bir dağ kəndindən rayon mərkəzinə gəlməyə ehtiyac yoxdur. Xəstəxanada olarkən onu da öyrəndik ki, dövlətimizin səhiyyəyə göstərdiyi diqqət və qayğı sayəsində əhalinin imtiyazlı təbəqəsinin hər bir üzvü dispanser qeydiyyatına götürülüb. Bu qəbildən olan xəstələrin hamısı vaxtlı-vaxtında müayinədən keçirilir və pulsuz dərmanlarla təmin edilir. Əhali arasında səhiyyə maarifi tədbirlərinin aparılması mühüm nəticələrin əldə olunmasına imkan verib. Səhiyyə müəssisələrinin müvafiq şöbələri tərəfindən hamilə qadınların həkim nəzarətində saxlanılması, doğuşların yalnız xəstəxana şəraitində həyata keçirilməsi, azyaşlı uşaqlar arasında peyvənd tədbirlərinin aparılması əhalinin sağlamlığına, körpə ölümlərinin minimuma endirilməsinə səbəb olub. Tibb işçilərinin praktik vərdişlərinin artırılması, həkim-cərrahların ixtisasartırma kurslarına göndərilməsi son dövrlərdə xəstəxanada cərrahi əməliyyatların uğurla həyata keçirilməsinə öz töhfəsini verib. Bir zamanlar rayon mərkəzi xəstəxanasında həyata keçirilməsi həm peşəkarlıq, həm də tibbi imkanlar baxımından mümkünsüz sayılan əməliyyatların indi bu səhiyyə ocağında aparılmasının heç bir çətinliyi yoxdur.

Əlbəttə ki, dövlətimiz tərəfindən səhiyyə sahəsinə göstərilən qayğı bu sahəni özünə ömürlük peşə seçmiş tibb işçilərini də əhatə edir. İndi Şərur rayonunda 670 tibb işçisi əhalinin sağlamlığı keşiyində durur ki, bu tibb işçilərindən 67-si həkim, 338-i orta tibb işçisi, 265 nəfəri isə aşağı tibb işçisidir. Ötən müddət ərzində 1 həkimə Azərbaycan Respublikasının Əməkdar həkimi, 4 həkimə Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, 2 orta tibb işçisinə Azərbaycan Respublikasının Əməkdar tibb işçisi, 1 orta tibb İşçisinə isə Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi fəxri adı verilib.

*Bəli, blokadanın yaratdığı ağır şəraitdə əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi bu gün muxtar respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən birinə çevrilib. Son 20 ildə səhiyyə sahəsində görülən işlər əhalinin sağlamlığının qorunmasına, ən qiymətli kapital sayılan insan kapitalının yaradılmasına xidmət edir.*

**S.HƏSƏNOV**

## Uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün bağçalarda hərtərəfli şərait yaradılıb



Naxçıvan şəhər 1 nömrəli uşaq bağçası



Ordubad şəhərində uşaq bağçası

Naxçıvan şəhərinin Heydər Əliyev prospekti ilə irəliləyirdik. Belçikadan gələn tanışım Xəyalə Heydərova yaxınlıqdakı binanı göstərərək, "bu, bağça binasıdır?", – deyə həyəcanla soruşdu:

– Bu binani deyirsən? Bəli, bağça binasıdır.

Tanışım gözlərini iri açaraq bağça binasına baxdı və dedi:

– Müasir standartlar səviyyəsindədir. Açığı mənə çox gözəl təsir bağışladı.

Naxçıvanın inkişafını internet vasitəsilə izləyən tanışımın səsi titrəyirdi. Duyğularını ifadə etməkdə həmişə çətinlik çəkən bu adamın söz xəzinəsi bir anda daha da müflisləşdi.

Bəli, Naxçıvanda bir sıra dövlətlərin məktəb, hətta idarə binalarından daha yaraşıqlı, geniş korpuslara sahib bağçalar fəaliyyət göstərir.

Tanışımla yaraşıqlı binaya daxil olduq. Mən nəzarətçi ilə salamlaşdım. Tanışım isə heyrətlə ətrafa baxırdı.

Bağçanın xarici kimi içərisi də memarlıq baxımdan gözəl idi. Biz ətrafa baxa-baxa yuxarı mərtəbəyə qalxdıq. Zalda uşaqlar milli dəyərlərimizi özündə əks etdirən tamaşalar hazırlayır, rəqslər edirdilər. Tərbiyəçilərdən biri bizi uşaqların maraqlı əl işləri ilə tanış etdi. Balacalarımız, həqiqətən də, burada əməksevərliyi öyrənirlər.

Tərbiyəçi dedi ki, buradakı şəraiti görən hər valideyn uşaqlarını rahatlıqla bu bağçalara əmanət edir. Dövlət tərəfindən ayrılan vəsait hesabına fəaliyyət göstərən bağçalarımızda millətimizin körpə balaları pulsuz məktəbəqədər təhsil alırlar.

– Pulsuz?

– Bəli, pulsuz. Bu da imkan verir ki, bütün körpələr bu gözəl şəraitdən istifadə etsinlər, yararlansınlar. Bir dəfə bir ağbirçəyin fikirlərinə qulaq şahidi oldum. Nəvəsini bağçaya gətirən bu qadın özü ilə söhbət edirdi: "Vallah, adam heyran olur, əvvəllər bu cür şərait yox idi. Məktəbdə yerə qələm düşəndə tapa bilmirdik, döşəmənin yarığından düşürdü zirzəmiyə. Bu gün yaradılan şəraitin qədrini bilmək lazımdır. Nəinki məktəblər, hətta bağçalar da çox möhtəşəmdir".

Bəli, Naxçıvanımızda bağçalar öz gözəlliyi ilə göz oxşayır. Naxçıvan şəhərindəki, rayon mərkəzlərindəki bağça binaları tam müasir tələblərə cavab verir. Bağça binaları bir neçə mərtəbədən ibarətdir. Burada uşaqlarımızın təlim-tərbiyəsinə xüsusi diqqət göstərilir, balalarımız vətənpərvər böyüdülür.

Tanışımla bağçanı tərk edəndə o, hələ də susqun idi. Bunun səbəbini yaxşı bilirdim.

Nəhayət, o dilləndi:

– Qısa zamanda yazılan inkişafın hekayəsinin təsiri altındayam...

Uzun müddət xaricdə yaşayan tanışıma elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafını təsdiqləyən faktlar sadaladım. O isə Naxçıvanın inkişafı ilə bağlı dediklərimə heyranlıqla qulaq asırdı.

Onun sözləri mənə böyüklərimizin danışdıqları reallıqları xatırlatdı: "Əvvəllər belə deyildi, bu cür binalara inkişaf etmiş ölkələrdə belə görmək çətin idi".

Bir anlıq keçmişi xatırladım. Yəni keçmiş dediyim mənim yox, nənəmin, anamın, o dövrlərdə yaşayan insanların keçmişini. Yadımdadır, nənəm danışırdı ki, əvvəllər bağçalar çox az idi. Olanların isə şəraitsizliyi ucbatından uşaqlarımızı ora yazdıra bilmirdik. Bu da işləyən hər valideyn üçün problemə çevrilmişdi.

Bu gün Naxçıvanda fəaliyyət göstərən bağçaların yaraşıqlı binası, gözəl şəraiti var. Diləyimiz bu gözəl, yaraşıqlı bağçalarımızın Vətənə layiqli övladlar yetişdirməsidir. Millətin ümidi olan körpələrin gələcəyə hazırlanmasında təlim və tərbiyə ocaqlarının xidmətinin böyüklüyü danılmazdır.

Gözünü açıb bu inkişafı görənlərə muxtar respublikanın keçdiyi keşməkeşli yolu nağıllamaq çətindir.

Əvvəllər heç nə belə deyildi. Nə yollar, nə tədris binaları, nə yaşayış binaları, nə də ticarət obyektləri. Bu inkişafın memarları çalışıb, mükəmməl əsər yaradıblar. Tarixin hansı dövrünə baxırsınızsa, baxın. Naxçıvanda bu cür inkişaf heç bir dövrdə olmayıb. Naxçıvanın bugünkü inkişafını heç bir dövrlə müqayisə etmək olmaz. Bugünkü inkişaf təkrarsızdır, yenidir, bəşəridir.

Körpələr gələcəyimizdir, gələcəyimizi parlaq etmək üçün təməldən başlamalıyıq. Necə ki başlayıblar.

**Nərgiz İSMAYILOVA**

# Yay aylarında necə istirahət edirik?



***Muxtar respublikamızda qış sərt soyuqlarla müşayiət olunduğu kimi, yay fəsli də qızmar Günəş şüaları və isti havalarla keçir. Belə olan vəziyyətdə isə, təbii ki, muxtar respublika sakinləri isti havalardan qorunmaq üçün nisbətən sərin yerlərə üz tuturlar. Regionun dağlıq bölgələrində məskunlaşmış insanların bu sarıdan çətinliyi Naxçıvan şəhərinin sakinlərindən daha azdır. Çünki kəndlərdə hava az da olsa, sərin keçir. Odur ki, yay dövründə şəhər sakinləri parklara, istirahət guşələrinə daha çox üz tuturlar. Muxtar respublikamızın turizm infrastrukturu barədə oxucularımıza dəfələrlə yeni məlumatlar vermişik. Ancaq vətəndaşlarımız bu şəraitdən istifadə edə bilirlərmi? Yaradılan şəraitdən razıdırlarmı? Bu suallarımıza cavab tapmaq üçün bir neçə müxtəlif peşə sahibi olan Naxçıvan şəhər sakini ilə söhbətləşdik.***



***İsmayıl ƏLİYEV – təqaüdçü:*** – Bilirsiniz, istirahət deyəndə ağlıma ilk gələn sakitlikdir. Elə bilirəm bu, mənim yaşımla əlaqədardır. Artıq 80 yaşı haqlamışam. Nəvələrim Bakı şəhərində yaşadıqlarına görə tez-tez ora gedirəm. Naxçıvana qayıdanda buradakı sakitlik mənə zövq verir. Elə bilirəm cənnət bir məkanda istirahət edirəm. Son illərə, daha doğrusu, 20 il əvvələ qədər şəhərdə Böyük bağdan başqa yaşıllığı olan istirahət guşəsi tapa bilməzdik. Bu günsə az qala hər yaşayış binasının önündə bir park, istirahət guşəsi yaradılıb. Mənim ən çox üz tutduğum ünvanlardan biri Böyük bağdır. Buranın mənzərəsi mənə ayrı bir zövq verir. Onu deyim ki, parklarımızın səliqə-sahmanına xüsusi diqqət yetirilir. Naxçıvan nə qədər isti olsa da, insanların istirahəti üçün yaradılan şərait bu istini hiss etdirmir. Mən doğma diyarımda mənən, ruhən saflaşıram. Əcəmi seyrəngahında yerləşən "Şəlalə" istirahət mərkəzinə də gedirəm. Bilirsinizmi, əvvəllər – ötən əsrin 90-cı illərində buralar boş və kimsəsiz idi. İşıqdan söhbət gedə bilməzdi. İndi isə fərqli bir mənzərədir. Əcəmi seyrəngahı təkrarolunmaz memarlıq ünvanına çevrilib. Üz tutduğum ünvanlardan biri də Heydər Əliyev Mədəniyyət və İstirahət Parkıdır.



***Tayfur ƏLİYEV – tələbə:*** – Mən yay tətilimi muxtar respublikada keçirməyə üstünlük verirəm. Bir gənc olaraq asudə vaxtlarımızın səmərəli keçməsi üçün burada hər cür şərait var. Elə bu günlərdə Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi"ndə oldum. Düşünürəm ki, bura Naxçıvanın ən gözəl guşələrindən biridir. Yaradılan yüksək şəraitdən və göstərilən xidmətdən gənclər olduqca razı qaldılar. Onu da qeyd edim ki, burada muxtar respublikanın fəal gəncləri ilə tanış olduq. İstirahətimiz əla keçdi. Müxtəlif intellektual oyunlar oynamaqla yanaşı, həm də fərqli mövzularda keçirilən seminarlarda iştirak etdik, rayonun ərazisindəki tarixi yerlərdə olduq. Artıq Ağbulaqdan qayıtmışam. Arada Əcəmi seyrəngahının aşağı hissəsindəki "Bazar gölü" istirahət kompleksinə üz tuturuq. Burada da yüksək səviyyədə istirahət edə bilmək üçün hər cür şərait yaradılıb. Kafedə yerli müəssisələrin istehsalı olan müxtəlif mürəbbələr, şirniyyatlar verilir ki, bu da bizim ürəyimizcədir. İdmançı olduğum üçün Üzgüçülük Mərkəzinə də tez-tez gedirəm. Bir gənc kimi qürurlanıram ki, doğulub boya-başa çatdığım doğma Naxçıvanım, sözün həqiqi mənasında, gözəllik aləminə qovuşub.



***Cavid ƏSGƏROV – sahibkar:*** – Naxçıvan şəhərinin Heydər Əliyev prospektində kiçik ticarətlə məşğulam. Qeyd edim ki, muxtar respublikada sahibkarlığa göstərilən qayğıdan bəhrələnərək işimi qurmuşam. Yay aylarında havaların isti keçməsi ilə əlaqədar olaraq dincəlmək üçün respublikamızın ayrı-ayrı bölgələrində yaradılan istirahət mərkəzlərinə üz tuturuq. İstirahət üçün əlverişli məkanlardan biri həm şəhərdən çox uzaq olmayan, həm də dincəlmək üçün hərtərəfli şərait yaradılan Uzunoba gölü yaxşı seçimdir. Biz də vaxtaşırı burada istirahətimizi dəyərləndiririk. Əvvəllər Naxçıvanda çimərlik olmamasından gileylənirdilər. Dövlətimizin göstərdiyi diqqət və qayğının nəticəsidir ki, Uzunoba gölünün ətrafında hər cür şərait yaradılıb, çimərlik ixtiyarımıza verilib.

Bundan əlavə, şəhərin isti havasından uzaq, sərin havası və buz kimi soyuq suyu, gözəl təbiət mənzərələri ilə zəngin olan Batabat yaylağı dincəlmək üçün, asudə vaxtımızı səmərəli və mənalı keçirmək üçün ən yaxşı məkandır. Muxtar respublikamızda fəaliyyət göstərən Duzdağ kartinq mərkəzinə getməklə də istirahətimizi dəyərləndiririk. Kartinqin qiyməti münasibdir. Mən bir çox xarici dövlətdə olmuşam. Dünyanın heç bir yerində müştərilərə bu cür qiymət təklif edilmir. Bir sözlə, yaradılan bu şərait ürəyimizcədir.



***Zeynəb İSMAYILOVA – evdar qadın:*** – Bu gün Əyləncə və İstirahət Mərkəzinə gəlmişik. Bu il, demək olar ki, istirahətimizi burada keçiririk. Övladlarım azyaşlıdırlar. İstidə onlarla uzaq məsafələrə getmək istəmirik. Onların ən sevimli ünvanı bu mərkəzdir. Bir valideyn kimi sevinirəm ki, belə bir mərkəz Naxçıvanda yaradılıb. Düzdür, şəhərimizdə uşaq istirahət mərkəzi fəaliyyət göstərirdi. Ancaq həmin ünvan uşaqların istirahəti üçün tam yetərli deyildi. Daha dəqiq desək, ərazi cəhətdən buraya gələn uşaqlar üçün darısqal idi. Lakin indi hər şey qaydasındadır. Ən çox da ona görə sevinirik ki, bu mərkəz qışda da fəaliyyət göstərir. Mərkəzdə təkcə uşaqların yox, valideynlərin də istirahəti üçün şərait yaradılıb. Burada kafe fəaliyyət göstərir. Ümumiyyətlə, yaradılan şəraitdən ailəlikcə razıyıq.

✍ **Sara ƏZİMOVA**

## Babək rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | Coğrafiya | | Kimya | | Biologiya | | Fiziki tərbiyə | | Gənclərin çağırışaqədərki hazırlığı | | İTPM | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Babək qəsəbə tam orta məktəbi | - | | | | | | | | | | | | | | | 1 | | | | 1 | - |
| 2. | Nehrəm kənd 1 nömrəli tam orta məktəbi | 4,5 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 |
| 3. | Nehrəm kənd 2 nömrəli tam orta məktəbi | 8 | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | 2 | 24 |
| 4. | Nehrəm kənd 3 nömrəli tam orta məktəbi | 5,5 | | | 1 | 12 | | | | | | | | | | | 1 | | | | 2 | 12 |
| 5. | Cəhri kənd 1 nömrəli tam orta məktəbi | 26 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | 2 | 24 |
| 6. | Cəhri kənd 2 nömrəli tam orta məktəbi | 28 | | | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 |
| 7. | Şıxmahmud kənd tam orta məktəbi | 15 | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 12 |
| 8. | Sirab kənd tam orta məktəbi | 22 | 2 | 18 | | | 1 | 12 | | | | | 1 | 12 | | | | | | | 4 | 42 |
| 9. | Kərimbəyli kənd tam orta məktəbi | 10 | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | 2 | 24 |
| 10. | Zeynəddin kənd tam orta məktəbi | 10 | | | | | 1 | 12 | | | | | | | | | 1 | | 1 | 12 | 3 | 24 |
| 11. | Qaraqala kənd tam orta məktəbi | 21 | | | | | | | | | | | | | | | | | 1 | 12 | 1 | 12 |
| 12. | Kültəpə kənd tam orta məktəbi | 11,5 | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 |
| 13. | Vayxır kənd tam orta məktəbi | 23 | | | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 |
| 14. | Şəkərabad kənd tam orta məktəbi | 4,5 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 15. | Yuxarı Buzqov kənd tam orta məktəbi | 60 | | | 1 | 12 | | | | | 1 | 18 | | | 1 | 12 | | | | | 3 | 42 |
| 16. | Aşağı Buzqov kənd tam orta məktəbi | 55 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 17. | Gərməçataq kənd tam orta məktəbi | 53 | | | | | | | | | | | | | 1 | 12 | | | | | 1 | 12 |
| 18. | Xal-xal kənd tam orta məktəbi | 22 | | | | | | | | | | | | | 1 | 12 | 1 | | | | 2 | 12 |
| 19. | Məzrə kənd tam orta məktəbi | 21 | | | | | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | 2 | 24 |
| 20. | Məmmədrza Dizə kənd tam orta məktəbi | 19 | | | | | | | 1 | 12 | | | | | | | | | | | 1 | 12 |
| 21. | Nəcəfəli Dizə kənd tam orta məktəbi | 20 | | | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | 2 | 24 |
| 22. | Naxışnərgiz kənd tam orta məktəbi | 15 | | | | | | | | | | | | | 1 | 12 | 1 | | | | 2 | 12 |
| 23. | Göynük kənd tam orta məktəbi | 34 | | | | | | | | | 1 | 12 | | | | | | | 1 | 22 | 2 | 34 |
| 24. | Araz kənd ümumi orta məktəbi | 10 | | | | | 1 | 12 | | | | | | | | | | | | | 1 | 12 |
| | **Cəmi:** | | 5 | 54 | 7 | 84 | 3 | 36 | 5 | 60 | 3 | 42 | 1 | 12 | 6 | 72 | 5 | | 5 | 70 | 40 | 430 |

## Sədərək rayonu üzrə 2015-2016-cı tədris ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Rayon mərkəzi ilə məktəblər arasındakı məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Fizika və astronomiya | | Kimya | | Fiziki tərbiyə | | İTPM | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Sədərək kənd 1 nömrəli tam orta məktəbi | 8 | 1 | 18 | 1 | 24 | 2 | 36 | 1 | 18 | 1 | 18 | 1 | 18 | 1 | 18 | - | - | 5 | 100 | 13 | 250 |
| 2. | Sədərək kənd 2 nömrəli tam orta məktəbi | 2 | 1 | 18 | 1 | 24 | 1 | 18 | - | - | - | - | 1 | 18 | - | - | - | - | 4 | 80 | 8 | 158 |
| 3. | Heydərabad qəsəbə tam orta məktəbi | | - | - | - | - | - | - | - | - | 1 | 18 | - | - | - | - | - | - | 1 | 20 | 2 | 38 |
| 4. | Qaraağac kənd tam orta məktəbi | 16 | - | - | - | - | 1 | 18 | - | - | - | - | 1 | 18 | 1 | 18 | 1 | 18 | 1 | 20 | 5 | 92 |
| | **Cəmi:** | | 2 | 36 | 2 | 48 | 4 | 72 | 1 | 18 | 2 | 36 | 3 | 54 | 2 | 36 | 1 | 18 | 11 | 220 | 28 | 538 |

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Boks Federasiyası və Şahbuz Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Naxçıvan və Şahbuz komandaları arasında boks üzrə yoldaşlıq görüşü keçirilib.***

## Şahbuz rayonunda boks üzrə yoldaşlıq görüşü

Şahbuz rayonunda baş tutan görüşdən öncə çıxış edən federasiyanın sədr müavini Məmmədcəfər Əliyev və rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov muxtar respublikamızda gənclərin bu növə olan marağından danışıb, son illər qazanılan uğurlar barədə iştirakçıları məlumatlandırıblar. "Bakı-2015" birinci Avropa Oyunlarında Tayfur Əliyevin bürünc mükafat qazanmasını muxtar respublikada idman və idmançılara göstərilən diqqətin bariz nümunəsi kimi qeyd ediblər.

10 çəki dərəcəsində keçirilən yoldaşlıq görüşündə Naxçıvan boksçularının rinqdə daha əzmkar olmaları hesaba da öz təsirini göstərib. Belə ki, onlar şahbuzlu həmkarlarını 6:4 hesabı ilə məğlub etməyi bacarıblar.

Sonda fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Babək rayonunun Aşağı Uzunoba kənd sakini Əhmədov İsmayıl Hüseyn oğlunun adına verilmiş 114 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Oğlanqala kənd sakini Seyidov Mirsədi Əbülfəz oğlunun adına olan JN-932$^A$ inventar nömrəli, 10200048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Oğlanqala kənd sakini Seyidov Mirsəfər Əbülfəz oğlunun adına olan JN-933$^A$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Hidayət Xəlil oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 644